# DÖVLƏT ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ ELMİ VƏ ELMİ-PEDAQOJİ KADR HAZIRLANMASININ BƏZİ MƏSƏLƏLƏRİNƏ DAİR (1991-2005-ci illər)

**G.H.MAHMUDOVA**
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu*
*mahmudova1971@mail.ru*

Azərbaycan Respublikasının suverenlik və dövlət müstəqilliyi əldə etməsi təhsil sisteminin bütün sahələri ilə yanaşı aspirantura təhsili yolu ilə yüksək ixtisaslı elmi və elmi-pedaqoji kadrların hazırlanması işinin də əsaslı surətdə yenidən qurulmasını, fəaliyyətinin forma və metodlarının təkmilləşdirilməsi və keyfiyyətinin yaxşılaşdırılmasını tələb edirdi.

Tədqiq etdiyimiz dövrdə elmi-pedaqoji kadrların hazırlanmasının sürətləndirilməsi və onların keyfiyyətcə daha yüksək pilləyə qaldırılması zəruriliyi barədə ayrı-ayrı hökumət qərarlarında və s. ötəri deyilsə də bu mühüm məsələyə xüsusi diqqət və qayğını ifadə edən ayrıca qərar verilməmişdir.

Respublikada hələ aspirantura yolu ilə kadr hazırlanmasına dair dövlət proqrpamı qəbul edilməmişdir və bu sistemin fəaliyyətini tənzimləyən yeni hüquqi və normativ sənədlər yoxdur. Aspirantların təhsilinə, onların sosial problemlərinə laqeydlik bu dövlət əhəmiyyətli sahənin işini müasir tələblər səviyyəsində qurmağa imkan verməmişdir. Bu qayğısız münasibətin məntiqi nəticəsi olaraq elmi və elmi-pedaqoji kadrlar hazırlamağın əsas vasitəsi olan aspiranturalarda oxuyan aspirantların sayı 90-cı illərin əvvəllərində tədricən azalmışdır. Əgər 1985-ci ildə Təhsil Nazirliyi sisteminə daxil olan 9 ali məktəb aspiranturasına 500-ə yaxın aspirant cəlb olunmuşdusa, [7, 18] 1995-ci ildə 16 ali məktəb aspiranturasına həmin sayda aspirant daxil olmuşdur.

Respublikanın elmi-tədqiqat və ali məktəblərində təhsil alan aspirantların sayı 1980-ci ildə 1551, 1985-ci ildə 1625 [7, 18] olmuşdursa, bu rəqəmlər 1990-cı ildə 1340, 1995-ci ildə 1282, 2000-ci ildə 963, 2005-ci ildə isə 1479 olmuşdur [5, 267-268].

Bu rəqəmlər müvafiq olaraq ali məktəblər üzrə aşağıdakı kimi olmuşdur. 1980-ci ildə 642, 1990-cı ildə 555, 2000-ci ildə 484, 2005-ci ildə 640 olmuşdur [5, 267-268].

1994-1995-ci illərdə isə aspiranturaya qəbul zamanı hüquq, tarix və iqtisadiyyat ixtisaslarından başqa digər ixtisaslara heç bir müsabiqə olmamışdır. Bir yerə bir namizəd vermişdir, 20 yer boş qalmışdır [10, №1, 61].

Aspirantların miqdarının azalması həm də keçid dövrünün çətinlikləri ilə əlaqədar idi. Müstəqilliyin ilk illərində ölkəni bürümüş böhranın aspirantura yolu ilə gənc alimlərin yetişdirilməsinə də böyük mənfi təsiri olmuşdur. Ali məktəblərin maddi-texniki bazası zəifləmiş,çap imkanları məhdudlaşmış, alimə, aspiranta dövlət qayğısı heçə enmişdir. Cüzi miqdarda təqaüd alan aspirant dissertasiyasını yazıb tamamladıq-

dan sonra kompüterdə yazdırmaq, cildlətdirmək, avtoreferat çap etdirmək və s. üçün vəsait tapa bilmirdi.

1990-cı illərin əvvəllərindən başlayaraq respublikamızda aparılan elmi-tədqiqat işlərinin dəyərinin, xüsusi çəkisinin ümumi daxili məhsula nisbətdə azalma tendensiyası müşahidə olunurdu. Təhlil göstərir ki, Azərbaycanda elmin inkişafına yönəldilmiş xərclər Ümumi Daxili Məhsula nisbətdə 1990-cı ildə 1,0%, 1991-ci ildə 0,8%, 1995-ci ildən 2005-ci ilədək 0,2% olmuşdur [6, 81] İnkişaf etmiş dünya ölkələrində isə (ABŞ, Fransa, Kanada və s.) elmə ayrılan vəsait büdcənin 4-6%-ni təşkil edir.

Son on ildə dövlət büdcəsindən elmə ayrılan vəsait simvolik xarakter daşımaqla ancaq cüzi maaş fondunu təşkil edirdi. 1995-ci ildə elmi işçilərin maaşı tikintidə və sənayedə işləyənlərin maaşından təxminən 30 faiz az idi [6, 81] Avadanlıq və ləvazimat almaq, ekspedisiyaya getmək, təcrübə aparmaq, ezamiyyə məqsədi ilə (məsələn, arxeologiya, etnoqrafiya, tarix və s.) vəsait ayrılmırdı. Ali məktəblərdə aparılan elmi-tədqiqat işlərəinə ayrılan maliyyə vəsaiti ali məktəb elminin inkişafını təmin etmirdi. Məhz samballı vəsaitin olmaması üzündən son on ildə elmin ictimai statusu və elmi fəaliyyətin nüfuzu açıq-aydın aşağı düşmüşdür.

Aspiranturanın dövlət qayğısı ilə əhatə edilməsi ona görə vacib və əhəmiyyətlidir ki, elmi və elmi-pedaqoji potensial yaradılmasının əsas vasitəsi məhz aspiranturadır. Ali məktəb kafedralarının elmi-pedaqoji tərkibi əsasən aspirantura sayəsində yeniləşdirilir. Respublikanın elmi tədqiqat institutları və ali məktəblərinin nəzdində 1990-cı ilədək 9 aspirantura fəaliyyət göstərirdi. Aspiranturaların sayı 1991-ci ildə 11, 1995-2000-ci illərdə 18, 2003-cü ildə 22, 2005-ci ildə 23 olmuşdur [5, 220].

Aspiranturaya qəbulun azalmasının səbəblərindən biri də planlaşdırma ilə əlaqədar idi. Belə ki, Dövlət Elm və Texnika Komitəsi (DETK) aspiranturaya qəbul planı layihəsinə baxarkən yerlərin istiqamətlər üzrə və ali məktəbin tələbatına uyğun təqdim etdikləri plan layihələrinə əsasən deyil, məktəblər üzrə elmi potensial nəzərə alınmaqla təsdiq edir ki, bu da real tələbatın ödənilməsəini xeyli çətinləşdirirdi.

Son dövrlərdə aspiranturaya qəbulun qiyabi formasına çox yer verilməsi, elmi-pedaqoji kadr hazırlığının keyfiyyətinə və dissertasiya işlərinin vaxtında müdafiəsinə öz mənfi təsirini göstərmişdir. Təkcə onu qeyd etmək kifayətdir ki, DETK tərəfindən 1995-ci ildə 160 aspirantura yerindən 104-nü yalnız təhsilin qiyabi formasına vermişdir [1, v. 4]. Qiyabi təhsilə üstünlük verilməsinin əsas səbəbi odur ki, maaş az olduğuna görə aspirantlar kommersiya strukturlarına, firmalara və maaşı yüksək olan başqa təşkilatlara üz tuturdular. Bu da onların bilavasitə aspirant kimi vəzifələrinin yerinə yetirməsinə mane olurdu.

Belə vəziyyət yuxarıda qeyd olunan maddi-maliyyə çətinlikləri ilə bağlı idisə, digər tərəfdən ali məktəblərdə elmi-pedaqoji kadrların hazırlanması işinin zəif təşkil edilməsi ilə bağlı idi. Aspirantların heç də hamısı iş yeri ilə təmin olunmurdu. Belə ki, yüksək göstəriciləri olan tələbələrin elmi işlərə cəlb edilməsi, əlaçı tələbələrin gələcəkdə məqsədyönlü istifadə olunması üçün ali məktəbi bitirdikdən sonra onların müvafiq kafedralarda saxlanması işləri sistemli təşkil olunmamışdır. Bir çox ali məktəblərdə kafedraların komplektləşməsi yalnız saat hesabı müəllimlərin cəlb olunması hesabına həyata keçirilirdi. Nümunə olaraq göstək ki, 1995/96-cı tədris ilində GDPU-yə 173 nəfər saat hesabı müəllim dəvət olunmuşdur [1, v.4] Bir çox aspirantlar isə digər idarələrdə qeyri-ixtisaslar üzrə işləyir və öz işlərinə az fikir verirdilər.

Elmi tədqiqat işlərinin aparılması üçün maddi-texniki bazanın zəif olması, çap işlərinin çətinliyi, maddi və sosial şəraitin pisləşməsi və s. kimi amillər aspirantların vaxtında müdafiə etməmələrinə səbəb olurdu. Əgər 1990-cu ildə vaxtında müdafiə etmiş aspirantların sayı 28 idisə 1995-ci ildə 11,1997-ci ildə 6, 2003-cü ildə isə 3-ə enmişdir [5, 267-268].

Aspirantların sayının azalmasına magistratura sisteminin tətbiq olunması, aspirantura sisteminin gələcəkdə ləğv olunması təsir göstərmişdir.

Dissertantura yolu ilə də elmi kadrlar hazırlanırdı. Buraya bir qayda olaraq, pedaqoji staj, müstəqil elmi iş aparmaq qabiliyyəti olan adamlar cəlb edilirdilər.

Dünya standartlarına uyğun elmi və elmi-pedaqoji kadrlar hazırlamaq üçün aspirantura və doktorantura sitemini daha yüksək səviyyədə qurmaq, zəruri maddi-texniki bazanın yaradılması, maddi stimullaşdırmanı lazımınca həyata keçirmək lazımdır.

Son illər magistratura vasitəsi ilə elmi-pedaqoji kadr hazırlığına başlanılmışdır. Ali təhsil sisteminin ikinci pilləsi olan magistraturada ali məktəblər üçün elmi-pedaqoji kadrlar hazırlamaq nəzərdə tutulurdu.

1997-ci ildən başlayaraq Nazirlər Kabinetinin razılığı əsasında 23 dövlət ali məktəbində müvafiq istiqamətlər üzrə bakalavr buraxılışının 20%-ə qədəri şərti gözlənilməklə magistraturaya qəbul keçirilmişdir. Magistraturaya qəbul 1997-ci ildə 1011 nəfər, 2000-ci ildə 2174, 2005-ci ildə 3017 olmuşdur [3, v.8]

Məlumdur ki, magistr hazırlığının əsas məqsədi ali məktəblər üçün elmi-pedaqoji kadrlarla yanaşı, bu və ya digər sahələr üzrə gələcək tədqiqatçıların hazırlanmasıdır. Magistr həm elmi-pedaqoji iş aparmağı, həm də elmi-pedaqoji fəaliyyət göstərməyi bacara bilən mütəxəssis kimi hazırlanmalıdır.

1998-ci ildə Təhsil Nazirliyinin müvafiq əmirləri ilə magistrlik dissertasiyalarının hazırlanması, təsdiq olunması və müdafiəsi qaydaları haqqında «Magistrlik dissertasiyasının müdafiəsi üçün ixtisaslaşmış elmi şuralar haqqında» əsasnamələr hazırlanaraq təsdiq edilmişdir [3, v.4].

Məlumdur ki, magistr dissertasiyası buraxılış işinin tamamilə yeni və spesifik növüdür. Bu baxımdan onun məzmununa qoyulan tələblər tam müəyyən edilməlidir. Qeyd olunduğu kimi, 1998-ci ildə onun məzmununa qoyulan tələblər müəyyənləşdirilmişdi. Lakin son illərin təcrübəsi göstərir ki, həmin tələblərin yenidən müəyyənləşdirilməsinə və bununla bağlı müvafiq əsasnamədə dəyişikliklər aparılmasına ehtiyac vardır.

Magistrlik dissertasiyası elmi iş olmaqla yanaşı magistrin müvafiq peşə sahəsində problemlərin həlli yollarını mənimsəməsini və müstəqil elmi-tədqiqatların aparılmasına hazır olmasını sübut edən bir elmi işdir. Buna görə də, magistrlik dissertasiyanın məzmununa qoyulan tələblər müəyyənləşdirilərkən bu prinsiplər əsas götürülməlidir [2, 433].

Magistr hazırlığında əsas problemlərdən biri ali məktəb üçün müəllim kadrları hazırlanması ilə bağlıdır. Burada söhbət elmi-pedaqoji fəaliyyətinə istiqamətlənmiş yüksək ixtisaslı kadrların yetişdirilməsindən gedir. Ayrı-ayrı xarici ölkələrdə bu məsələyə müxtəlif cür yanaşmalar mövcuddur. Bəzi ölkələrin universitetlərində magistr hazırlığını təmin edən tədris planlarında pedaqoji-psixiloji fənlərin tədrisinə kifayət qədər vaxt ayrılır ki, bu da onlara gələcəkdə ali məktəbdə müəllim işləmək hüququ verir. Bir sıra ölkələrdə isə gələcəkdə ali məktəblərdə müəllim işləmək istəyən magistrlərə müvafiq təhsil proqramı üzrə müəllimlik fəaliyyəti üçün zəruri olan pedaqoji, psixoloji və metodiki fənlər, o

cümlədən seçmə kurslar tədris olunur. Belə tələblərə magistraturanı bitirərkən əlavə «Ali məktəb müəllimi» ixtisas dərəcəsi verilir.

Respublikamızda magistr hazırlığına başlayarkən bu pillədə ali məktəblər üçün elmi-pedaqoji kadrların hazırlanmasında qeyd olunan birinci ölkələrin təcrübəsindən istifadə olunmuşdur. Lakin bu prosesin həyata keçirilməsində bir sıra problemlər mövcuddur. Məsələn, mövcud tədris planlarında ali məktəblər üçün pedaqoji kadrlar hazırlığını təmin edən fənlərin sayı və onlara ayrılan saatların həcmi kifayət qədər deyildir [3, v.6].

Magistr təhsil proqramlarının mövcud strukturunda yalnız «Ali məktəb pedaqogikası», «Psixologiya», «Fənnin tədrisi metodikası və metodologiyası» fənləri daxil edilmişdir. Lakin strukturda ali məktəb müəliimləri üçün zəruri olan ritorika vərdişlərinin aşılanmasını, mübahisələrin aparılmasını, ünsiyyət yaradılmasını və s. təmin edən fənlərin tədrisi nəzərdə tutulmamışdır. Digər tərəfdən mövcud tədris planlarında pedaqoji, psixologiya fənləri üzrə proqram və dərsliklərin olmaması, bu fənləri tədris edən müəllimlərin ixtisaslarının təkmilləşdirmə mexanizmlərinin yaradılmaması ciddi problemlər yaradır [1, 3].

Mövcud qaydalara görə magistr pilləsində ən mühüm məsələlərdən biri magistr proqramlarına rəhbərlikdir. Magistr proqramımın rəhbəri uyğun ixtisas və istiqamət üzrə fənlərin əsas və işçi proqramlarının tərtib olunmasına, mühazirə və məşğələlərin məzmununun işçi proqramların tam əhatə etməsinə tədris planına uyğun olaraq tədrisin təşkili və onun yerinə yetirilməsinə, magistr mövzusunun magistrlər tərəfindən seçilməsinin təşkil edilməsinə, magistr dissertasiyasının müdafiəsinin təşkilinə cavabdehdir.

Ona görə də, elmi dərəcəsi və ya elmi adı olan şəxslərə 2-dən artıq magistr proqarmına rəhbərlik etməyə icazə verilmir. Lakin magistraturaya qəbul planları düzgün müəyyənləşdirilmədiyindən bir sıra ali məktəblərdə (BDU, ADU) ayrı-ayrı magistr proqramları üzrə təhsil alan magistrlərın sayı bəzi hallarda 20-30-a çatmışdır [4, v.7].

Mövcud qaydalara görə magistrlik dissertasiyasının mövzusunu, planını, magistrin elmi rəhbəri kafedranın tədqimatı əsasında fakültə elmi şurası tərəfindən I kursun birinci semestrinin 3 ayı ərzində təsdiq olunmalıdır. Bir çox ali məktəblərdə Əsasnamənin bu tələblərinə əməl olunmur. Məsələn, magistrlik dissertasiyaları mövzu, plan və elmi rəhbərlər 1999-cu ildə Slavyan Universitetində magistraturaya qəbul keçirildikdən 7 ay, Azərbaycan Dillər Universitetində 8 ay sonra təsdiq edilmişdir [3, v.6].

Bir çox ali məktəblər üçün tipik olan bu nöqsanlar yüksək səviyyəli elmi-pedaqoji kadr hazırlığına mənfi təsir göstərməyə bilməz.

Təhsil müəssisələrində magistr hazırlığı başlandığı gündən ali məktəb icitmaiyyətinin diqqət mərkəzində olmuş və çoxlu mübahisə və müzakirələrin predmetinə çevrilmişdir. Belə ki, bir qrup mütəxəssislər magistr hazırlığını aspirantura hazırlığı ilə eyniləşdirərək magistr dərəcəsini «elmlər namizədi» elmi dərəcəsinə bərabər tuturlar.

Digərləri isə əks mövqe tutaraq bu pilləni yalnız ixtisaslaşmış mütəxəssis hazırlığını təmin edən pillə kimi qəbul edirlər.

Məlumdur ki, sovet təhsil sistemində ali ixtisas təhsili almaq istəyənlərin hamısı üçün ümumi olan beşillik ali təhsildən sonra elmi yaradıcılıq yolunu seçənlər üçün üç illik aspirantura təhsili nəzərdə tutulurdu. Aspiranturada məhz bu məqsədə xidmət edən əlavə təhsil alır və həm də müəyyən mövzu üzrə elmi-tədqiqat işi apararaq «dissertasiya» adlanan elmi əsər yazırdılar. İddiaçı elm adamı üçün lazım olan bilik və vərdişlərə yiyələndikdən sonra özünün ilk müstəqil tədqiqat işini müda-

fiəyə hazırlayırdı. Əgər iddiaçı yazdığı əsərdəki elmi müddəaları Elmi Şura qarşısında müdafiə edə bilirdisə, ona «elmlər namizədi» birinci elmi dərəcə verilirdi.

Qərb ölkələrində isə elmi işə magistratura pilləsində başlanılır və elmi yaradıcılıqla bağlı biliklər də bu pillədə verilir. İddiaçı elm adamı üçün lazım olan bilik və vərdişlərə yiyələndikdən və özünün ilk müstəqil tədqiqat işini yazaraq, elmi şura qarşısında müdafiə edə bilirsə, ona elmi ad verilir.

Son vaxtlar Təhsil Qanununun layihəsi ilə əlaqədar elmi dərəcələr və elmi adların sovet modelindəki kimi saxlanması, yoxsa müasir Qərb modelinə uyğun olaraq dəyişdirilməsi üzərində böyük mübahisələr gedir. Bir çoxları magistraturanın aspiranturanı əvəz etdiyini iddia edir, digərləri isə magistraturanın elmi dərəcə ilə az əlaqəli olduğunu söyləyirlər və onu sadəcə ali təhsilin yüksək pilləsi hesab edirlər. Aspiranturanın Qərbdəkinə uyğun doktorantura ilə əvəz olunmasını və ya belə bir təhsil pilləsinin ləğv olunmasını təklif edənlər də vardır.

Beləliklə, təhsil-elm pilləkənində üçpilləli (bakalavriat, magistratura, doktorantura) və dördpilləli variant (bakalavriat, magistratura, aspirantura, doktorantura) tərəfdarları arasında ciddi mübahisələr gedir. İndi aspirantura doktorantura dilemmasını həll etməyə çalışan mütəxəssislər əsasən xarici ölkələrin, ilk növbədə ABŞ və Avropa ölkələrinin təcrübəsinə istinad etməyə çalışırlar [8, 65].

Təhsil Qanunu layihəsinin müzakirələrində ən çox mübahisə doğuran məsələlərdən biri aspiranturanın saxlanılıb-saxlanılmaması ilə bağlıdır.

Magistratura-aspirantura-doktorantura üçlüyündə hansısa pillənin artıq olub-olmaması barədə mübahisələrin səbəblərindən biri də magistratura pilləsinin məqsədi, statusu və məzmununun hələ də dəqiq müəyyənləşdirilməməsidir.

Aspiranturanın analoqu Qərb ölkələrinin təhsil sistemində yoxdur. Elmi yaradıcılıq üçün zəruri olan biliklərin tədrisi və imtahan verilməsi isə bir təhsil pilləsi kimi magistraturada keçilmiş olur. Magistratura bir təhsil pilləsi olaraq aspiranturanı əvəz edir, lakin bir tədqiqat pilləsi olaraq əvəz etmir. Belə ki, magistraturada müdafiə olunan tədqiqat işinə qoyulan tələblər aşağı olur. Bu bir növ ciddi yazılmış diplom işinə uyğun gəlir.

Sovet təhsil sistemində mövcud olan aspirantura sistemi dünyada olan təhsil sistemlərdən biridir və hər bir sovet aliminin formalaşmasında böyük rol oynamışdar. Məhz bunun nəticəsində sovet elmi dünyanın ən aparıcı elmlərindən biri olmuşdur.

Fikrimizcə, aspirantura sisteminin ləğv olunması elmin gələcək inkişafına mənfi təsir göstərə bilər. Çünki respublikamızda magistratura sistemi hələ tam formalaşmamışdır. Bir çox ali məktəblərdə formal yaradılan magistraturanın əsl magstraturaya heç bir oxşarlığı yoxdur. Əslində, magistraturanı bitirənlərin tədqiqatçılıq səviyyəsi də müasir tələblərə cavab vermir.

Aspiranturanın ləğvi və elmi kadrların hazırlanması yolları ilə bağlı təkliflərin bir zaman Azərbaycanda tətbiq olunması, bəlkə də, məqsədəuyğun olacaq. Lakin bu yalnız o zaman olacaq ki, inkişaf etmiş ölkələrdə mövcud olan və elmin inkişafın təmin edən, Azərbaycanda isə hələlik olmayan bir çox şərtlər burada da yetişmiş olsun.

Aspirantura təhsilin üçüncü pilləsinin əsası və hər şeydən əvvəl yüksək keyfiyyətli elmi əməkdaşların (elmlər namizədi və ya fəlsəfə doktoru) hazırlanması sistemi kimi mütləq indiki vaxtda saxlanılmalı olan yeganə mexanizmdir.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Təhsil Nazirliyinin arxivi. f. 1, sih. 2, iş 11.
2. Azərbaycan Respublikasının təhsil qanunvericiliyi külliyyatı. Bakı: Azərbaycan Beynəlxalq Universiteti, 2001, 579 s.
3. ARTNA. Kollegiya materialları. 2002-2003-cü illər. Cari arxiv.
4. ARTNA. Ali təhsil idarəsinin cari arxivi.
5. Azərbaycanın Respublikası Dövlət statistika komitəsi. Az. statistik göstəriciləri: Təhsil, Elm, Mədəniyyət. Bakı: 2005, 487 s.
6. Azərbaycan Respublikasında insan inkişafı haqqında hesabat. 1998, BMT-nin inkişaf proqramı. Bakı: Azərnəşr, 1998.
7. Həsənov İ.Y. Ali texniki təhsilin inkişafı (1976-1985). – Nam. diss.avtoref. Bakı, 1992, 24 s.
8. Xəlilov S.S. Təhsil sistemi: nəzəriyyə və praktika. Bakı: Azərbaycan Universiteti, 1999, 172 s.
9. «Xalq» qəz., Bakı, Azərbaycan Respublikası, 2000, 22 aprel.
10. «Təhsil Xəbərləri» / Təhsil Nazirliyinin orqanı, №1, 2001, 61 s.


## К ВОПРОСУ ПОДГОТОВКИ НАУЧНЫХ И НАУЧНО-ПЕДАГОГИЧЕСКИХ КАДРОВ В ГОСУДАРСТВЕННЫХ ВЫСШИХ УЧЕБНЫХ ЗАВЕДЕНИЯХ АЗЕРБАЙДЖАНА (1991-2005 гг.)


Г.Г.МАХМУДОВА


### РЕЗЮМЕ


Статья посвящена вопросам подготовки в государственных высших учебных заведениях Азербайджана посредством аспирантуры и магистратуры научно-педагогических кадров в 1991-2005 годах. На основе фактического материала в ней даётся анализ состояния обучения в аспирантуре, выявляется значимость усовершенствования этой системы в подготовке научных и научно-педагогических кадров. Здесь также раскрываются вопросы подготовки соответствующих кадров посредством магистратуры, указываются недостатки в этой сфере.

В работе раскрываются спорные вопросы в связи с обсуждением законопроекта об образовании, в котором рассматриваются вопросы либо о сохранении советской модели присуждения научных степеней и научных званий, либо её изменении в соответствии с требованиями современной западной модели. Автор, выражая своё отношение к подобным мнениям, показывает, что в современных условиях, при недостаточном формировании в Азербайджане системы магистратуры, сохранение аспирантуры необходимо.


## ON SOME ISSUES OF TRAINING SCIENTIFIC AND SCIENTIFIC-PEDAGOGICAL SPECIALISTS IN STATE HIGH SCHOOLS OF AZERBAIJAN (THE YEARS OF 1991-2005)


G.H.MAKHMUDOVA


### SUMMARY


The article deals with the problem of training scientific-pedagogical specialists by post graduate studies and magistracy in state high – schools in Azerbaijan in 1991-2005. The given work analyses the post-graduate system and the importance of perfecting it to train scientific and scientific-pedagogical specialists. This paper also finds out the ways of training corresponding specialists by magistracy and points out the shortcomings in this sphere. The Education Bill whether to keep the academic ranks and degrees the same as they were in the Soviet model or to shift it in accordance with the Western one is widely discussed in this article. The author displays her attitude to these views and shows that the magistracy system of Azerbaijan is yet to be formed and it would be advisable to keep the post graduate studies for present.